# Ədəbi dühanın əbədi şöhrəti

## *Teatr muzeyində yubiley mərasimi*





**Azərbaycan Dövlət Teatr Muzeyi və Cəfər Cabbarlının ev muzeyi Cəfər Cabbarlının 125 illiyinə həsr olunmuş yubiley mərasimi keçirib.**

Toplantını giriş sözü ilə açan Teatr muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova Cəfər Cabbarlı yaradıcılığından, onun Azərbaycan mədəniyyətinə verdiyi misilsiz töhfələrdən söz açıb. Sonra dramaturqun həyat və yaradıcılığını əks etdirən videoçarx nümayiş olunub.

Teatr muzeyinin elmi-kütləvi işlər şöbəsinin müdiri Ümidə Hacıyeva C.Cabbarlının zəngin ədəbi irsindən, pyeslərinin səhnə təcəssümündən danışıb. "Cəfər Cabbarlı mükafatı"nın komissiya üzvü, Xalq artisti Mərahim Fərzəlibəyov, AMEA Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya elmləri doktoru Tahirə Məmməd, Əlyazmalar İnstitutunun professoru Tahirə Həsənzadə, Milli Konservatoriyanın dosenti Firudin Qurbansoy dramaturqun çoxyönlü ədəbi-bədii yaradıcılığından, milli mədəniyyətimizin inkişafına göstərdiyi xidmətlərdən danışıblar.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının artisti Məsmə Ağaverdiyeva ədibin "Ey, dan ulduzu", Bakı Bələdiyyə Teatrının aktyoru Toğrul Rza "Məhkum Şərqə" və "Azərbaycan bayrağı" şeirlərini səsləndiriblər. Əməkdar artist Rəşad İlyasov isə C.Cabbarlının "Azad bir quşdum" mahnısını ifa edib.

Böyük dramaturqun əsərlərinin motivləri əsasında hazırlanan səhnələr mərasimə xüsusi rəng qatıb. Tədbirdə ədibin yaradıcılığını əks etdirən sərgi nümayiş olunub.

Sonda Cəfər Cabbarlının ev muzeyinin direktoru Qəmər Seyfəddinqızı Teatr Muzeyinin kollektivinə, alim və sənətkarlara ölməz sənətkarın irsinə verdikləri yüksək dəyərə görə minnətdarlığını bildirib.

**R.QURBANLI**
**XQ**

Xalq qəzeti .- 2024.- 20 aprel, № 79.- S.5.